

Şahnaz Şahin

# Rəsul Rza poeziyasının çağdaşlığı

**Böyük sənətkarların yaradıcılığı həmişə öz səciyyəsini dövrdən, zamandan almışdır. Dövrün, həyatın mahiyyətini dərindən anlayan belə sənətkarlar zamanın fəlsəfi məğzini, qabaqcıl meyllərini əsərlərində əks etdirmiş, işıqlı və humanist düşüncələrin bədii sənət müstəvisinə yol açmasına vəsilə olmuşlar. Belə sənətkarlar həmişə ədəbi-ictimai müzakirələrin, fikir, düşüncə ixtilaflarının qaynar yerinə atılmış, sənət və sənətkarlıq məsələlərinin ictimai-fəlsəfi mahiyyəti ilə bağlı novator düşüncələrini bədii fakt kimi ortaya qoya bilmişlər.**

Rəsul Rza şəxsiyyəti və poeziyası vəhdətdə olan, yaradıcılığında vətəndaşlığı, vətəndaşlığında sənətkarlığı həmişə diqqəti cəlb edən mütəfəkkir yaradıcı simalardan biri, həm də minillik poeziyamıza novator düşüncə gətirən, milli-bədii mədəniyyətimizin təkamülündə yeni mərhələ rolunu oynayan qüdrətli söz ustasıdır. O, dövrünün ehtiraslı, döyüşkən, mübariz övladı olmuş, poetik fikrimizə, bədii fəlsəfi düşüncəmizə böyük şərəf və şöhrət gətirmişdir.

Hər bir sənətkarın, hər bir sənət əsərinin dəyəri zəmanəsini, həyatdakı təbəddülatları, həmçinin xalq psixolojisindəki yenilikləri düzgün və dolğun işıqlandırması ilə önəm daşıyır.

Rəsul Rzanın yaradıcılığı zamanı dövrü, xalqın gündəlik həyatını və mübarizəsini, həmçinin həyatın canlı lövhələrini bədii həqiqət, poetik mahiyyət kontekstində inikas edir. Onun əsərlərində müasirlik duyğusunun böyük gücü və qüdrəti heyranlıq doğurur. O, zamanın, həyatın, bütövlükdə dünyanın bir çox məsələlərinə müdrik düşüncə ilə, öncül dünyabaxışla yanaşaraq, hadisələri özünəməxsus şəkildə bədii sənət müstəvisində dolğun ümumiləşdirmələrlə əks etdirmişdir.

Rəsul Rza novator sənətkar kimi bədii forma, təsvir üsulları, obrazlı dil sferasında sürətli addımlar atmış, poeziyamızın üfüqlərini genişləndirərək, bədii-fəlsəfi və ictimai düşüncəmizin inkişafında müstəsna rol oynamışdır.

XX əsr Azərbaycan poeziyasında modern düşüncənin intişarını ədəbi fakt olaraq yalnız "Rəsul Rza ədəbi məktəbi" reallaşdıra bilmişdir. Bu ədəbi məktəbin və bu novator ədəbi missiyanın davamçıları olan Əli Kərim, Fikrət Qoca, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Fikrət Sadıq və çağdaş poeziyamızın neçə-neçə ünlü isimləri ustadın yenilikçi ənənəsini davam etdirərək şablon, trafaret bədii vasitələrə qarşı çıxaraq, yeni düşüncə yolunda cəsarətlə irəliləməyə başladılar.

Böyük sənətkarın sənətkarlıqla bağlı olan və hər zaman aktuallığını qoruyan fikirləri bu gün də səciyyədir.

..."Şair" sözünün yanındakı "istedadlı" sözü qəribə görünür.

Axı, istedadsız şair ola bilməz. Və əgər biz şair olmaq həvəsinə düşən bu və ya başqasını yalnız qafiyə düzməyi və hecaları müəyyən ölçüyə salmağı bacardığına görə şair adlandırırıqsa, bu, poeziyanın deyil, bizim günahımızdır. Şair ancaq istedadlı ola bilər. İstedadın dərəcəsi isə başqa məsələdir.

1941-1945-ci savaş illərində yazdığı şeirlər Rəsul Rza poeziyasında vətəndaşlıq duyğusunun yüksək poetik ifadəsi kimi səciyyə tapmış və bu şeirlərdə təmiz ailə, pak sevgi, düz ilqar, sədaqətli dostluq həqiqi vətəndaşlıq duyğusunun bir hissəsi olaraq, hərarətlə tərənnüm olunmuşdur.

Rəsul Rzanın lirikası həm mövzu, həm də məzmunca etibarilə zəngin və dolğundur. Şairin "Rənglər" silsiləsi poeziyamızda, bütövlükdə ədəbiyyatımızda böyük ədəbi hadisə olaraq qalmaqdadır. Bu şeirlər öz məzmunu, həyatiliyi, fikir dərinliyi, ictimai əhəmiyyəti və sənətkarlığı etibarı ilə heyranedicidir, həmçinin bu poetik nümunələrdə fəlsəfi məzmun, poetik təravət, həyat və cəmiyyət hadisələrinə aydın filosof-şair münasibətinin geniş mənzərəsi görünür.

"Rənglər" silsiləsi "Uvertüra" şeiri ilə başlayır. Bu poetik nümunəni zəngin sənət dünyasının sehrli qapısı kimi səciyyələndirmək olar. Bu şeir bütün silsilənin poetik kodudur.

**Rənglərin də musiqi kimi ahəngi var,**
**Ağrının, sevincin, ümidin də**
**rəngi var.**
**Düşündükcə açılır,**
**əlvan səhifələri rənglərin.**
**Canlanır gözümüzdə rəngi**
**ömrün, mübarizənin,**
**qəlbin, nifrətin, gecənin, səhərin**
**və insan taleyinin -**

bu misralar yüksək poetik orijinallığın mahiyyətində ehtiva olunan dərin bədii-fəlsəfi mətləblərin və zəngin modern düşüncənin təcəssümüdür.

Böyük şairin "Dəniz haqqında nəğmələr" silsiləsi də poetik özünəməxsusluğu, bədii təravəti ilə seçilən dəyərli sənət nümunəsidir. Bu əsərlərin obrazlılığı dərin həyati müşahidəyə, bədii obyekti qiymətləndirmək imkanına söykənir, həmçinin bu şeirlərdə poetik fiqurlardan və fərdi-sitiativ məcazlardan məharətlə istifadə bacarığı böyük sənətkarlıq etiketidir. Silsiləyə daxil olan bəzi şeirlərdən müəyyən poetik deyimlərin orijinallığına diqqət edək:

**1. "Bu gün dəniz süküta qərq olub,**
**Bəlkə sükut qərq olub dənizə".**
**2. "Riqqətə gəldi dəniz,**
**Yaladı qayaların**
**oyuq-oyuq yaralarını".**
**3. "Göl də sudur,**
**gölməcə də.**
**Dənizin dənizliyi**
**Dalğalardadır".**
**4. "Bu gecə öpdüm dənizi**
**Sahildən ayrılanda.**
**Dodaqları duzlu idi;**
**Göz yaşı kimi".**
**5. "Gördüm qayada**
**dənizin ləpirlərini**
**Nə zamansa, dəniz**
**burdan keçib".**
**6. "Mən dənizi üşüyən görmüşəm".**

Bu şeirlərin yazıldığı vaxtdan uzun illər keçməsinə baxmayaraq burada bədii obyektə yanaşma orijinallığı, zəngin fikir tutumu, poetik tapıntıların əlvanlığı bu gün də poetik təravətini qoruyur, sabah da qoruyacaq. "Dənizin üşüdüyünü görən" şairin bədii idrakının, poetik təfəkkürünün poeziyamızın ruhunu necə isitdiyini zaman-zaman görəcəyik.

Rəsul Rza poeziyasının önəmini indeksləşdirən xüsusiyyət, onun milli bədii irsdən, bədii ənənədən yaradıcılıqla bəhrələnərək, Azərbaycan poeziya məkanına yeni istiqamət, düşüncə tərzi və məxsusi dünyagörüş gətirməsidir. Onun yaradıcılığını poeziyamız tarixində yeni səhifə kimi səciyyələndirmək olar. Bu, şair təfəkkürünün yalnız ictimai-fəlsəfi qayəsi ilə deyil, həm də böyük bədii-estetik dəyəri, yüksək poetik keyfiyyətləri ilə bağlıdır.

Rəsul Rzanın yaradıcılığı həm mövzularına görə, həm həyati-fəlsəfi problematikasına və zəmanəyə, insana münasibətinə görə, həm də lirik qəhrəmanın mənəvi cəhətlərinə və mənəvi axtarışlarına görə müasirdir.

Ədəbiyyatda müasirlik mətnin, mündəricənin, bədii surətlərin müasirliyi ilə məhdudlaşmır, hər şeydən öncə, fikrin, ideyanın həyata və insanlara münasibətin müasirliyini tələb edir. Zamanla bağlılıq, əsrin övladı olmaq təkcə zahiri amillərdən ibarət deyil. Rəsul Rza poeziyası göründüyü kimi bütün bədii detallarına qədər müasirdir. Bu müasirliyi həm ictimai hadisələrə, cəmiyyətin həyatına, xalqın mənəvi aləminə və keçmiş mədəniyyətinə, həm də bədii-estetik problemlərə müasir, aktiv insanın yanaşması, dünyabaxışı kimi görmək olur. Müasirlik onun təfəkküründə, idrakında, həyata və insanlara fəlsəfi-estetik münasibətində olduğu üçün o, tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizin, qan yaddaşımızın çevrilməmiş səhifələrinə müraciət edəndə də çağdaşlıq aspektindən çıxış edir və aşıladığı ideyanı müasirliklə bağlayır. Müasirlik ədəbiyyatın xarakterini, məzmunun və mahiyyətini müəyyənləşdirən başlıca amillərdən biri, həm də şairin zamanın aktual problemlərinə həssas münasibət bəsləmək qabiliyyətinin göstəricisidir.

Poeziyanın, bilavasitə ədəbiyyatın müasirliyi deyəndə, bunu bəzən yanlış olaraq yalnız zaman hüdudunda cərəyan edən hadisələrdən bəhs edən əsərlər kimi başa düşənlər də var. Müasirlik kateqoriyasına bu cür baxış birtərəfli və məhdud baxışdır. Bu anlayış təkcə bugünkü qayğılarımızdan, problemlərimizdən, yaşayışımızdan söhbət açan, müasir dövrü, zamanı, mühiti göstərən əsərlərə aid deyil, həmçinin yaxın və uzaq keçmişimizi, tariximizi əks etdirən və tarixi keçmişimizin bu gün üçün örnək olası, müasir nəslin bəhrələnə biləcəyi səciyyəvi xüsusiyyətlərini yüksək poetik təqdimatda təsvir və ifadə edən sənət nümunələrinə şamildir.

Rəsul Rza üslubunun müasirliyi təkcə dövrün, zamanın aktual problemlərinə münasibət bildirməkdən, həyatın canlı hadisələrini, adi həqiqətlərini təsvir etməkdə deyil, həyatın həqiqi tipik cizgilərini, insanlığın nailiyyət və çətinliklərini, sevincini və kədərini obrazlı təsvir etməklə yanaşı, tərənnüm və təlqin edilən poetik mətnin yüksək bədii həlli ilə səciyyələnir.

Belə əsərlərdə müasirlik hər şeydən öncə məzmun və mahiyyətin dolğun, obrazlı təqdimatında özünü büruzə verir. Müasirliyi ilk növbədə əsərin məzmununda, onun ideya-bədii həllində və mündəricəsində axtarmaq lazımdır.

Rəsul Rza ədəbiyyatda yalnız öz mövzuları ilə deyil, öz üslubu, bədii predmetə yanaşma üsulu, ədəbi-estetik meyarlara məxsusi münasibəti, janr-forma axtarışlarındakı yenilikləri, bədii təsvir və ifadə vasitələrinin təravəti, geniş məcazlar şəbəkəsi ilə yaşayır.

**"Fikrim külək aparmış elçim kimi,**
**elə bil, dolaşdı, qaldı**
**Qoşaarxın yaxasındakı**
**böyürtkən kollarında".**

Onun lirikası öz düşüncə miqyasına, öz istinad ünvanlarına və qaynaqlarına görə milli lirikadır. Bu millilik lokal xarakter daşımır, onun içində böyük bir bəşərilik mövcuddur.

**"Yaponiyada ən yeni**
**elektron maşınların**
**xırdası var, irisi var.**
**Yaponiyanın bir də**
**Qədimdən qalma**
**Xarakirisi var".**

Qeyd etmək lazımdır ki, böyük şairin üslubunun ən mühüm göstəricilərindən biri də onun dilə münasibətidir. Bu münasibət yaradıcıdır, sözün yığcamlığına, ehtiraslılığına görə aşılanmışdır.

Poema mənəvi həyatın qatlarını açan, tarixin ibrət dərslərini, insan məişətinin mənəvi-əxlaqi ahəng və təzadlarını, cəmiyyət və təbiət problemlərini geniş epik təfəkkürlə, lirik bir vüsətlə açıqlayan bədii forma kimi ədəbi prosesin maraqlı janrlarındandır. Azərbaycan poeziyasında bu janrın inkişafında xüsusi xidməti olan qüdrətli sənətkarlardan biri də Rəsul Rzadır. Böyük sənətkar üslub orijinallığı ilə seçilən, obrazların zənginliyi, insan xarakterlərinin dərin təhlili baxımından sanballı, ədəbi ictimaiyyətin həmişə diqqətini cəlb edən poemalar yazmışdır. Şairin müxtəlif vaxtlarda qələmə adlığı "Bir gün də insan ömrüdür", "Min dörd yüz on səkkiz", "Anamın gəlin qızı", "Qız qalası", "Babək", "Füzuli", "Hilal", "Son gecə", "Lenin", "Xalq həkimi", "Qızılgül olmayaydı" yüksək ideya xüsusiyyətlərinə, kolorit gözəlliyinə, daxili dinamika və dramatizminə görə diqqətəlayiqdir. Poema universal janr olduğuna görə, şairin yaradıcılığında müşahidə edilən başqa ədəbi növlərə məxsus ən yaxşı keyfiyyətləri, sənətkarlıq komponentlərini özündə cəmləşdirə bilir və onun həm lirik, həm epik, həm də publisist üslubi imkanlarının bir janr daxilində vəhdətini, sintezini ortaya çıxarır.



Rəsul Rza "Bir gün də insan ömrüdür" (1964) poemasında XX əsr insanının zəngin və aydın aləmini, daxili potensialını, mənəvi gücünü, çağlayan həyat eşqini işıqlandırır. Bu poemada qurub-yaradan insanın əzminin, sevgisinin, halallığının, xoş niyyətinin, daxili zənginliyinin, həmçinin həyat lövhələrinin təsvirindəki bədii detalların dolğun və səmimi ifadəsini görürük.

**Yarpaqların sayı qədər**
**üstə gəl "bir"**
**öpürəm, öpürəm!**
**Sağ ol, körpəm!**
**Sonra ehtiyatla**
**Örtür qapını, çıxır eyvana.**
**Şəfəqlər çiçək-çiçək**
**Səpələnib hər yana.**

Poemadakı bu misralar gərgin iş rejimində işləyən, qurub-yaratmaq əzmini ömrünün mənasına çevirən bir atanın körpə qızına bəslədiyi məhəbbətin bədii ehtivasıdır. Əsərin ideya-bədii həlli, poetik ümumiləşdirmənin məna tutumu dolğundur.

"Min dörd yüz on səkkiz" poeması müharibə mövzusunda yazılmış və real hadisələrin xarakterini bədii müstəvidə yüksək sənətkarlıqla, dərin səmimiyyətlə və zəngin poetik detallarla təcəssüm etdirən qüdrətli sənət nümunələrindəndir. Böyük sənətkarın mükəmməl poetik əsərləri sırasında, həmçinin poeziyamızda bu mövzuda yazılmış dəyərli nümunələr arasında bu poemanın məxsusi yeri və sanbalı vardır. Əsərdə digər ədəbi komponentlərlə yanaşı, poetik dilin dolğunluğu, bədii-fəlsəfi fikrin inam aşılayan nikbin ruhu xüsusi önəm daşıyır. Poetik detallara müraciət edək:

**"damağında yoxdursa**
**doğma dilinin dadı,**
**sinəsində yoxdursa**
**böyük elinin odu,**
**can dəftərində yoxsa**
**möhürü ana yurdunun...**

**Yarana bilərdimi**
**bu çox səsli**
**Qabiliyyət nəğməsi!"**

misralarda ehtiva olunan poetik fikirlərin səmimi ovqatı böyük bir bəşəri mətləbi hasilə gətirir: "Qabiliyyət nəğməsi - mənəvi və xəlqi birliyin təcəssümüdür".

Epik səhnələrin təsvirindəki orijinal poetik detallar bədii mahiyyətin və hadisənin xarakterini dolğun əks etdirir. Müharibəyə qapı kimi açılan günün səhərini şair yüksək poetik məharətlə canlandırmışdır.

**İlin ən qısa gecəsi**
**əriyir yavaş-yavaş;**
**körpə səhərin**
**ilk qızartılarında.**
**Quş civiltiləri tökülür**
**yaşıl yarpaqlara.**
**Sular axır,**
**Qucağında yumşaq kölgələri**
**Sahildən qopara-qopara.**

Daha sonra bu qana bələnmiş günün içində baş verən hadisələrin bədii-fəlsəfi ritmini misralarda duyuruq:

**"Alışdı ilk tank**
**üzü şərqə,**
**Düşdü torpağa**
**ilk şəhid**
**üzü qərbə.**
**Başladı ilk ölüm,**
**ilk dözüm, ilk zərbə".**

Böyük şairin bütün əsərlərinə xas olan ictimai-fəlsəfi siqlətin poetik ifadəsi bu poemada da öz yüksək səciyyəsini tapmışdır.

**"Min dörd yüz on səkkiz gün**
**keçdi o gündən.**
**İndi bu doğum evi qarşısındasan,**
**o vaxtın gündaşı, ildaşı**
**Bu günün gərəkli vətəndaşı!"**

"Qızılgül olmayaydı" (1956-1960) poemasında böyük təbəddülatlarla dolu həyatda insanın üzləşdiyi dərin sarsıntılar unudulmaz şairimiz Mikayıl Müşfiqin obrazında canlandırılmışdır. Poemanın ruhuna hopmuş kədər, qüssə oxucunun qəlbini üşüdür. Əsərdə poetik ifadə zənginliyi, məcazların dolğunluğu dost itkisinin ağırlığını, nakam şair taleyinin faciəsini həyati detallarla əks edir.

**Başını qaldıranda,**
**gözlərim bircə anlıq**
**gözlərinə sataşdı.**
**Elə bil, kimsə birdən**
**köhnə, tanış kitabın**
**səhifəsini açdı.**

Bu poemada məcazlar silsiləsi, poetik orijinallıq dərhal nəzərə çarpır; "gözlərin köhnə, tanış kitabın səhifəsi kimi açılması" metonimiyası poemanın bədii-fəlsəfi leytmotivi kimi çıxış edir.

Əsər başdan-başa məlum bayatının hüznlü ovqatı üstə yazılsa da, bədii sonluq, poetik mahiyyət işıq dolu bir inamla tamamlanır.

**Nə dilində giley qalardı,**
**nə gözlərində kədər.**
**Oxşayardı könlünü**
**dillərdə, dodaqlarda gəzən**
**Mikayıl Müşfiq imzalı**
**nəğmələr!**
**İnanıram, bir gün**
**onun səhər gələcəkli**
**pioner oxucuları**
**çiçəklərlə bəzəyəcək**
**şairin heykəlini.**

Şairin bədii həqiqəti həyat həqiqətinə çevrilmişdir.

"Babək" poeması (1977) böyük şairin digər poemaları kimi, həm mövzusunun əhəmiyyətinə, monumentallığına görə, həm milli mübarizənin xarakterinə görə, həm də hisslərin, fikirlərin dramatikliyinə görə xüsusilə seçilən bir əsərdir.

Poema həcm etibarilə böyük olmasa da bədii qüdrətinə, poetik mahiyyətinə rəğmən Rəsul Rzanın böyük sənətkar məharətini özündə ehtiva edir.

Əsərin poetik gücü, bədii-fəlsəfi, həmçinin ictimai-milli siqləti kifayət qədər möhtəşəmdir. Sovet dönəmində yazılmış və milli düşüncənin, milli özünüdərkin yüksək poetik dəst-xətlə ehtivası, həmçinin misralarda milli düşüncənin poetik dildə "üsyanı" yadda qalandır.

**Babək bir anlıq**
**huşa dəldi**
**Qan qurumuş dodaqlarından**
**qopdu qaynar kəlmələr:**
**Gəlmələr!**
**İtlər!**
**Bu nifrəti təkrarladı**
**qolu bağlı**
**babəkçilər - igidlər.**

Bu misralar xalq qəhrəmanı Babəkin qəsbkarlara, doğma vətənini işğal edənlərə qarşı nifrətini əks etdirir. Daha sonra milli düşüncənin yığcam və konkret poetik harayını eşidirik.

**Qulaqlarda**
**hələ də cingildəyirdi,**
**necə qanlı döyüşlərdə**
**gurlayan**
**Babək səsi -**
**odlu kəlmələr:**
**vurun!**
**Vurun!**
**Bu torpağın oğulları!**
**Tapdamasın yurdumuzu**
**gəlmələr.**
**Kimdir onlar! -**
**Xilafətin qulları!**
**Xalqın yaralı dilinə**
**Mütilik məlhəmi qoyanlar.**
**Körpələrimizin beşiyi başında,**
**ağa dildə**
**şükran nəğməsi oxuyanlar...**

Bu misralar mütəfəkkir şairin işğalçıya, zülmə, istibdada qarşı etirazıdır. Bu misralar təkcə Babəkin ərəb xilafətinin qəsbkarlığına qarşı etirazı kimi səslənmir, həm də əsarətə qarşı, milli ruha, xalqın dilinə təcavüz edən bütün qəsbkarlara qarşı şairin yüksək sənət dilində poetik "üsyan"ıdır. Bu mənada Rəsul Rza poeziyası milli düşüncənin, milli təfəkkürün inkişafında məxsusi çəkisi olan milli-mənəvi sərvətlərimiz sırasındadır.

**Müasir poeziyamızın sənətkarlıq xüsusiyyətlərinə görə inkişafını, bu inkişafın istiqamətlərini aydınlaşdırmaq üçün üslubi poetik vasitələrin, məcaz və poetik fiqurların, obrazlılıq məsələlərinin tədqiqi baxımından Rəsul Rzanın yaradıcılığı unikaldır. Bu mənada şairin poeziyasının ədəbi növ, janr, ideya-bədii, sənətkarlıq xüsusiyyətlərinin yeni düşüncə, modern yanaşma aspektindən geniş ədəbi təhlili ədəbiyyatımızı zənginləşdirəcəkdir.**